**DOI: https://doi.org/10.59849/2957-3882.2024.2.67**
**UOT: 327**

# AZƏRBAYCAN VƏ MƏRKƏZİ ASİYA ÖLKƏLƏRİ ARASINDA ƏLAQƏLƏRİN PERSPEKTİVLİYİ

**Nadejda ƏSƏDOVA***

***Açar sözlər:*** *SPECA, Mərkəzi Asiya ölkələri, Azərbaycan, beynəlxalq münasibətlər, Orta Dəhliz*

## XÜLASƏ

Ölkəmizin dünya dövlətləri ilə səmərəli və qarşılıqlı əməkdaşlığı genişlənməkdə davam edir. Məqalədə göstərilir ki, son dövrlərdə istər Prezidentin xarici ölkələrə işgüzar və rəsmi səfərləri, istərsə də digər dövlətlərin dövlət və hökumət başçılarının Bakıya rəsmi səfərləri Azərbaycanın xarici dövlətlərlə yüksələn xətt üzrə inkişaf edən münasibətlərinin və yaxın əlaqələrinin göstəricisidir.

Artıq bir neçə ildir ki, Azərbaycanın Mərkəzi Asiya ölkələri, o cümlədən türk dövlətləri ilə münasibətlərində böyük canlanma müşahidə olunur. Mərkəzi Asiya ölkələrinin dünyaya iqtisadi, bəzi hallarda isə siyasi inteqrasiyasında Azərbaycan həm ortaq tarix, din, dil, mədəniyyət və s. baxımdan, həm də coğrafi xüsusiyyətlərinə görə həlledici rol oynayır. Mərkəzi Asiya ölkələri Azərbaycan vasitəsilə Şərqi və Qərbi birləşdirməkdədir. Vətən müharibəsindən sonra Azərbaycanın nəqliyyat-logistika imkanlarının genişlənməsi ölkəmizi Şərqlə Qərb arasında mühüm nəqliyyat qovşağına çevirib. Təsadüfi deyil ki, bu gün Mərkəzi Asiya ölkələrindən Avropaya gedən ən qısa və təhlükəsiz tranzit daşımalar məhz ölkəmizin ərazisindən həyata keçirilir. Burada o da nəzərə alınmalıdır ki, Azərbaycanda müasir nəqliyyat-logistika infrastrukturu yaradılıb və ölkəmiz beynəlxalq nəqliyyat şəbəkələrinə inteqrasiya olunub. Mərkəzi Asiyada Azərbaycanın tranzit ölkə statusu getdikcə daha böyük əhəmiyyət kəsb etməkdədir.

Müəllifin fikrincə, Mərkəzi Asiya və Azərbaycan artan iqtisadiyyatı, demoqrafiyası və geosiyasi potensialı ilə dünya siyasətində strateji əhəmiyyətə malik olan vahid tarixi-mədəni coğrafi regiondur. Azərbaycanın Mərkəzi Asiya ölkələri ilə əlaqələri kontekstində türk dünyası ilə münasibətlər də böyük əhəmiyyət kəsb edir. Dövlətimizin xarici siyasətində Türk Dövlətləri Təşkilatına üzv ölkələrlə hərtərəfli əlaqələrin gücləndirilməsi prioritet istiqamətlərdən birini təşkil edir. Azərbaycan türk dünyasının inteqrasiyası üçün daim mühüm təşəbbüslərlə çıxış edir və bu yöndə əməli addımlar atır. Məqalədə vurğulanır ki, BMT-nin Mərkəzi Asiya Ölkələrinin İqtisadiyyatları üçün Xüsusi Proqramının (SPECA) Bakıda keçirilən birinci sammiti hazırda dünya miqyasında xüsusilə diqqət mərkəzindədir. SPECA-nın iştirakçı ölkələrinin dövlət və hökumət başçılarının birinci Zirvə görüşünün sonunda Bakı Bəyannaməsi və Orta Dəhlizin rəqəmsallaşdırılması ilə bağlı Yol Xəritəsi qəbul edilib. Müəllif Azərbaycanın Mərkəzi Asiya ölkələri ilə əməkdaşlığının çox yaxşı perspektivləri olduğunu qeyd edərək, gələcək illərdə bu əməkdaşlığın daha da genişlənməsi və dərinləşməsi üçün çox böyük işlərin görüləcəyini, daha əhəmiyyətli addımların atılacağını vurğulayır. Şübhəsiz ki, Azərbaycan və Mərkəzi Asiya ölkələri arasında gün-gündən inkişaf edən qarşılıqlı faydalı münasibətlər Türk dünyasının tərəqqisinə olduqca mühüm töhfələr verəcəkdir.

* *AMEA-nın akad. Z.M.Bünyadov adına Şərqşünaslıq İnstitutu*
*E-mail:esedovanad@gmail.com*

Məqalədə ortaq soykökü və tarixi-mədəni əlaqələrə malik ölkələrimiz arasındakı münasibətlərin bundan sonra da xalqlarımızın və dövlətlərin maraqlarına uyğun inkişaf edəcəyi və genişlənəcəyi məsələləri geniş təhlil edilib. Mərkəzi Asiya ölkələri ilə getdikcə daha da möhkəmlənən qarşılıqlı sərfəli əməkdaşlıq həm ölkələrimiz və xalqlarımız üçün böyük əhəmiyyət kəsb edir, həm də bütün Türk dünyasının inkişafına əhəmiyyətli töhfələr verməkdədir.

**Giriş**

Azərbaycan Respublikası 1991-ci ildə müstəqillik əldə etdikdən və 1992-ci ildə BMT-yə üzv qəbul olunduqdan sonra ölkəmizin Mərkəzi Asiya ölkələri ilə ikitərəfli əməkdaşlıq əlaqələri başlanmışdır və hazırda bu əlaqələr müvəffəqiyyətlə inkişaf etməkdədir.

Azərbaycanla Mərkəzi Asiya ölkələri arasında siyasi, iqtisadi, humanitar və mədəni əlaqələr getdikcə genişlənməkdədir. Prezident İlham Əliyevin apardığı uğurlu siyasət nəticəsində Azərbaycanda müasir nəqliyyat-logistika imkanları yaradılmış və ölkəmiz beynəlxalq nəqliyyat şəbəkələrinə inteqrasiya olunmuşdur. Azərbaycanın da üzərində yerləşdiyi Orta Dəhlizin əhəmiyyəti dünyada baş verən son hadisələrdən sonra özünü xüsusilə aydın büruzə vermişdir.

Torpaqlarımız işğaldan azad edildikdən sonra Azərbaycanın nəqliyyat-logistika imkanları xeyli genişlənmişdir. Hesab edirik ki, Zəngəzur dəhlizinin reallaşmasına da qısa müddət qalıb, beləliklə, ölkəmizin mühüm nəqliyyat qovşağına çevriləcəyinə əminik. Bu gün Çindən və Mərkəzi Asiyadan Avropaya gedən ən qısa və təhlükəsiz tranzit daşımaları məhz ölkəmizin ərazisindən keçir, bu da Azərbaycanın həmin dövlətlərlə əlaqələrinin inkişafına yetərincə əhəmiyyətli yol açır (Ömərov, 2013, s.14). Azərbaycanla Mərkəzi Asiya ölkələri arasında qurulan ikitərəfli əməkdaşlıq əlaqələrinin böyük perspektivi var. Buna sübut olaraq qeyd etmək olar ki, BMT-nin Mərkəzi Asiya Ölkələrinin İqtisadiyyatları üçün Xüsusi Proqramının (SPECA) Bakıda keçirilən birinci sammiti bu gün dünya miqyasında xüsusilə diqqət mərkəzindədir.

1998-ci ildə BMT tərəfindən yaradılmış SPECA Mərkəzi Asiya ölkələrində iqtisadiyyatın davamlı inkişafını və qarşılıqlı əlaqələrin gücləndirilməsini təşviq edən iqtisadi platformadır. Bu platformaya üzv olan ölkələr qismində Azərbaycan, Türkmənistan, Qazaxıstan, Qırğızıstan, Özbəkistan, Tacikistan və Əfqanıstanı göstərmək olar (https://globalnews.az/news/azerbaycan-merkezi-asiya-olkeleri-ile-coxesrlik-tarixi-ve-medeni-elaqeler-baglayir/).

Məlum olduğu kimi, 2023-cü il noyabrın 20-də BMT Baş Assambleyası SPECA-nın 25 illiyi ilə əlaqədar qətnamə qəbul etmişdir. Qətnamədə üzv-dövlətlərin qarşılıqlı anlaşmasına, iqtisadi əməkdaşlığa və bölgədə inkişafa səbəb olacaq regional proqram kimi mühüm rolu qeyd olunur. Sənəd Mərkəzi Asiya ölkələrində əldə edilən tərəqqini, onların Avropa və Asiya iqtisadiyyatlarına inteqrasiyasını və dünya iqtisadi artımına töhfəsini xüsusi vurğulayır. Qətnamə, həmçinin, xatırladır ki, davamlı inkişaf hədəflərinə çatmaq məqsədilə Mərkəzi Asiya ölkələri arasında regional əməkdaşlığın bundan sonra da inkişafı və dost qonşuluq münasibətlərinin inkişafı zəruridir.

2023-cü ildə Proqrama Azərbaycan sədrlik etmişdir. Ölkəmizin sədrliyi dövründə ‒ 20-24 noyabr 2023-cü il tarixlərində Bakıda SPECA həftəsi keçirilmişdir. Belə ki, bizim üçün böyük əhəmiyyəti olan SPECA-nın 25-ci ildönümünə həsr olunmuş Zirvə görüşünə paytaxt Bakı ev sahibliyi etmişdir. Sammitdə Proqramın üzvü olan ölkələrin prezidentlərinin və digər yüksək səviyyəli rəsmilərin iştirakı tədbirin nə qədər önəmli olduğunu bir daha əyani şəkildə sübut edir.

Həmin il noyabrın 24-də SPECA-nın iştirakçı ölkələrinin dövlət və hökumət başçılarının birinci Zirvə görüşü keçirilmiş, görüşün sonunda SPECA-nın iştirakçı ölkələrinin dövlət və hökumət başçıları tərəfindən Bakı Bəyannaməsi və Orta Dəhlizin rəqəmsallaşdırılması ilə bağlı Yol Xəritəsi qəbul edilmişdir. Bakı Bəyannaməsində dövlət və hökumət başçıları SPECA-nın iqtisadi əməkdaşlıq və regional inteqrasiya imkanlarından müştərək istifadə edilməsi yollarının öyrənilməsi məqsədilə və

xüsusən rabitə, ticarət, nəqliyyat və logistika, rəqəmsal transformasiya və innovasiyalar, sənaye, energetika, su ehtiyatlarının idarə edilməsi, ətraf mühit, yaşıl keçid və qarşılıqlı maraq doğuran digər sahələr üzrə meydana çıxan ümumi çağırışlara ortaq cavabların verilməsi platforması kimi SPECA-nın rolunun gücləndirilməsi barədə öz niyyətlərini bəyan edirlər. Sənəddə rəqəmsallaşma və tranzit marşrutlarının yaşıl transformasiyası, həmçinin ticarət və nəqliyyat prosedurlarının sadələşdirilməsi və energetika birləşmələri, o cümlədən Şərq-Qərb Transxəzər Orta Dəhlizi çərçivəsində yaşıl enerji daxil olmaqla, əməkdaşlıq sahəsində bilavasitə prioritet sahə və bu məqsədlə Transxəzər beynəlxalq nəqliyyat marşrutu üzrə Multimodal Məlumat və Sənədlərin Rəqəmsallaşdırılması üzrə Yol Xəritəsinin qəbul edilməsinin qərara alındığı vurğulanır. Bundan başqa, Şərq-Qərb Transxəzər Orta Dəhlizinin SPECA-nın iştirakçı ölkələri ilə Asiya və Avropanın müxtəlif regionları, onun hüdud-larından kənarda daha səmərəli və dayanıqlı əlaqələrdən biri kimi əhəmiyyətinin və ölkələri dəhlizin potensialından qitələrarası nəqliyyat əməliyyatları üçün istifadə etməyə çağırmaq, SPECA-nın iştirakçı ölkələrinin müvafiq hakimiyyət orqanlarına nəqliyyat şirkətləri, ekspeditorlar, logistika mərkəzləri və milli operatorlar arasında bütün dəhliz boyu kommunikasiyaların səmərəliliyini artırmaq üçün nəqliyyat əlaqələrinin yaxşılaşdırılmasına diqqəti cəmləşdirmək tövsiyə edilir (https://apa.az/xarici-siyaset/speca-nin-zirve-gorusunun-baki-beyannamesi-tam-metn-797219,11).
SPECA-nın 25-ci ildönümünə həsr olunmuş tədbirdə çıxış edən Prezident İlham Əliyev bildirmişdir ki, Azərbaycanı Mərkəzi Asiya ölkələri ilə çoxəsrlik tarixi və mədəni əlaqələr bağlayır. Azərbaycan və Mərkəzi Asiya strateji əhəmiyyəti artmaqda olan vahid tarixi-mədəni və geosiyasi məkandır.

“SPECA-nın üzv ölkələrinin dövlət başçılarının və hökumətlərinin birinci görüşünün beynəlxalq tərəfdaşların iştirakı ilə Bakı şəhərində mükəmməl təşkilinə, həmçinin Azərbaycanda SPECA günləri çərçivəsində 2023-cü il noyabrın 20-24-də digər tədbirlərin təşkilinə görə Prezident İlham Əliyevə səmimi təşəkkürün öz əksini tapması, Zirvə görüşünün yüksək səviyyədə keçməsindən xəbər verir. (https://www.yeniazerbaycan.com/Siyaset_e77891_az.html).

**Azərbaycan və Mərkəzi Asiya ölkələrinin qarşılıqlı münasibətlərinə baxış**

Siyasi dialoqa hər zaman çox önəm verən, regionda və dünyada sülhün tərəfdarı olan ölkəmizin dünya dövlətləri ilə səmərəli və qarşılıqlı əməkdaşlığı genişlənməkdə davam edir. Son dövrlərdə istər cənab Prezidentin xarici ölkələrə işgüzar və rəsmi səfərləri, istərsə də digər dövlətlərin dövlət və hökumət başçılarının Bakıya rəsmi səfərləri Azərbaycanın xarici dövlətlərlə yüksələn xətt üzrə inkişaf edən münasibətlərinin və yaxın əlaqələrinin göstəricisidir.

Məlum olduğu kimi, Mərkəzi Asiya ölkələrindən Avropaya gedən ən qısa və təhlükəsiz tranzit daşımalar məhz ölkəmizin ərazisindən həyata keçirilir. Artıq hər kəs qəbul edir ki, tarixi İpək Yolu olaraq Azərbaycan Mərkəzi Asiya ölkələri üçün Türkiyə və Avropa bazarları istiqamətində etibarlı tranzit ölkədir. Bundan başqa, “Rəqəmsal İpək Yolu” layihəsi Azərbaycan və Mərkəzi Asiya ölkələri arasında əməkdaşlığın inkişafı baxımından mühüm layihələrdən biridir. “Ölkələrimiz arasında əməkdaşlığın yeni sahəsi fiber-optik infrastrukturun yaradılmasına yönəlmiş və üzərində fəal çalışdığımız “Rəqəmsal İpək Yolu” layihəsidir” Fiber-optik infrastrukturun yaradılmasına yönəlmiş və üzərində fəal iş aparılan bu layihə ölkələrimiz arasında əməkdaşlığın yeni istiqamətini təşkil edir.

Ancaq təbii ki, Azərbaycanı və Mərkəzi Asiya ölkələrini xalqlarımızın çoxəsrlik qardaşlıq münasibətləri bir-birinə sıx şəkildə bağlayır. 2023-cü il sentyabrın 14-də Düşənbədə Mərkəzi Asiya Dövlət Başçılarının 5-ci Məşvərət görüşü keçirildi. Tədbirdə fəxri qonaq qismində iştirak edərkən Prezident İlham Əliyev bununla bağlı qeyd etmişdir: “Azərbaycanı və Mərkəzi Asiya ölkələrini xalqlarımızın çoxəsrlik qardaşlıq münasibətləri bağlayır. Ortaq mədəni köklər dövlətlərarası əlaqələrin möhkəm bünövrəsini təşkil edir. Otuz ildən artıqdır ki, biz müstəqil dövlətlər kimi həm ikitərəfli, həm çoxtərəfli formatda fəal şəkildə qarşılıqlı fəaliyyət aparırıq, bir-birimizin müstəqilliyini, suverenliyini və ərazi bütövlüyünü dəstəkləyirik, iqtisadi əlaqələri

fəal şəkildə inkişaf etdiririk. Mərkəzi Asiya və Azərbaycan artan iqtisadiyyatı, demoqrafiyası və geosiyasi potensialı ilə dünya siyasətində strateji əhəmiyyətə malik olan vahid tarixi-mədəni coğrafi regiondur" (https://president.az/az/articles/view/61059).

Azərbaycanın Mərkəzi Asiya ölkələri ilə əlaqələri kontekstində türk dünyası ilə münasibətlər də böyük əhəmiyyət kəsb edir. Dövlətimizin xarici siyasətində Türk Dövlətləri Təşkilatına üzv ölkələrlə hərtərəfli əlaqələrin gücləndirilməsi prioritet istiqamətlərdən birini təşkil edir. Azərbaycan türk dünyasının inteqrasiyası üçün daim mühüm təşəbbüslərlə çıxış edir və bu yöndə əməli addımlar atır.

Azərbaycanın Mərkəzi Asiya ölkələri ilə inkişaf edən və genişlənən əlaqələrini xarakterizə edən amillərdən biri də yüksək səviyyəli qarşılıqlı səfərlərdir. Bununla əlaqədar qeyd edək ki, son illər ərzində Prezident İlham Əliyev mütəmadi olaraq Mərkəzi Asiya ölkələrinə, bu regionda yerləşən dövlətlərin başçıları isə Azərbaycana səfərlər edirlər. Həmin səfərlər zamanı imzalanan sənədlər ölkələr arasında əməkdaşlığın genişləndirilməsi üçün möhkəm təməl rolunu oynayır. Elə SPECA-nın 25-ci ildönümünə həsr olunan Zirvə görüşündə iştirak üçün Azərbaycana səfər edən Mərkəzi Asiya ölkələrinin rəhbərlərinin gəlişi də bunun daha bir təzahürüdür. Mərkəzi Asiya ölkələri coğrafi baxımdan yaxın, dost və qardaş ölkə olan Azərbaycanla əlaqələrə böyük önəm verirlər. Burada o da xüsusi qeyd olunmalıdır ki, Azərbaycanla Mərkəzi Asiya ölkələri arasındakı əlaqələrin inkişafında açılan yeni üfüqlər olduqca böyük perspektivlər vəd edir. Hazırda Avropanın enerji təhlükəsizliyinə ciddi töhfələr verən Azərbaycan Şərqlə Qərb arasında, o cümlədən Mərkəzi Asiya ölkələri üçün mühüm tranzit ölkə və etibarlı tərəfdaşdır. Mərkəzi Asiya ölkələri də bunu nəzərə alırlar. Elə bu fonda da Azərbaycanın Mərkəzi Asiya regionu dövlətləri ilə qarşılıqlı inteqrasiya prosesinin hazırda yeni vüsət alması müşahidə olunmaqdadır.

Qafqaz və Mərkəzi Asiyada cərəyan edən geopolitik proseslərin təhlili bu potensialın üzə çıxarılmasının dünya birliyinə nə qədər gərəkli olduğunu göstərir. Ölkələrimiz artıq vahid geosiyasi, iqtisadi və mədəni məkan yarada bilmişlər. Məsələ bundadır ki, hazırda geosiyasi rəqabətin kəskinləşdiyi və dünya düzəninin formalaşdığı indiki dövrdə planetin müxtəlif regionlarında gedən proseslər ölkələrdən birgə əməkdaşlıq, birlikdə hərəkət etməyi və ümumi səylər göstərməyi tələb edir. Bundan irəli gələrək qarşılıqlı iqtisadi əlaqələrin gücləndirilməsi də ön planda yer alır.

Hesab edirik ki, Mərkəzi Asiya ölkələrini təmsil edən şirkətlərin Azərbaycanda fəaliyyət göstərən Ələt Azad İqtisadi Zonasına hazırkı marağı da ikitərəfli əlaqələrin daha da möhkəmlənməsinə böyük inam yaradır. Zonanın yaradılmasında əsas məqsəd qabaqcıl idarəetmə təcrübəsinə uyğun yüksək əlavə dəyərli və ixracyönümlü istehsalı təmin etməkdir. İnnovativ texnologiyalardan istifadə edərək xidmətlər göstərən investorları cəlb etmək, bu şirkətlərin Azərbaycan şirkətləri ilə əməkdaşlığının təmin olunması nəticəsində ölkə iqtisadiyyatının dinamik və dayanıqlı inkişafına töhfə vermək, həmçinin on minlərlə yeni iş yeri yaratmaq da əsas hədəflərdəndir. Ələt Azad İqtisadi Zonası daha çox nəqliyyat və logistika sahəsinin formalaşmasına xidmət edir. Belə bir iqtisadi zonanın yaradılması isə Azərbaycanın tranzit ölkə olaraq öz imkanlarını daha da genişləndirməsinə müvafiq şərait yaradır və ölkə ərazisinə yükdaşımaların artırılmasını şərtləndirir.

Digər tərəfdən, Şərq-Qərb marşrutu ilə yükdaşımalara artan tələbatı təmin etmək məqsədilə ölkəmizdə Bakı–Tbilisi–Qars dəmiryolunun müasirləşdirilməsi istiqamətində mühüm layihələr həyata keçirilir. Reallaşdırılan tədbirlərin nəticəsidir ki, 2024-cü ildə bu yol ilə daşınan yüklərin həcminin 1 milyon tondan 5 milyon tona qədər artacağı proqnozlaşdırılır. Buna paralel olaraq, Bakı Ticarət Limanının imkanları bugünkü 15 milyon tondan 25 milyon tona qədər artırılır. Mərkəzi Asiya ölkələri bununla Xəzər dənizi vasitəsilə Azərbaycan üzərindən dünya bazarına daha çox məhsul ixrac etmək, Orta Dəhlizin imkanlarından geniş şəkildə yararlanmaq imkanı qazanırlar. Nəticədə, Xəzər dənizi Azərbaycanla Mərkəzi Asiyanı daha sıx birləşdirir. Dünyanın sabit məkanları sırasında yer alan Azərbaycanın və Mərkəzi Asiya ölkələrinin sıx inteqrasiyası onların inkişafı üçün yeni

mərhələlər açır. Həm də bu, onunla şərtlənir ki, həm Azərbaycan, həm də Mərkəzi Asiya ölkələri başqalarının diktəsi ilə hərəkət etməyən dünyanın müstəqil subyektləridir.

Azərbaycanın xarici siyasətində Mərkəzi Asiya ölkələri, o cümlədən Tacikistanla münasibətlərin inkişaf etdirilməsi prioritet hesab edilir. Tarixi, mədəni, dini bağlılığa malik Azərbaycan-Tacikistan dostluq və qardaşlığı hər zaman səmimiyyət və qarşılıqlı hörmət prinsiplərinə əsaslanır. Hələ Sovetlər Birliyi dönəmində hər iki respublika arasında çox yaxın əlaqələr mövcud idi. Müstəqillik qazandıqdan sonra isə bu münasibətlərdə yeni mərhələ başlanmış və hər iki ölkə əsl dostluq şəraitində yeni imkanlara əsaslanaraq siyasi-iqtisadi, elmi-mədəni, humanitar-sosial və digər sahələrdə çoxtərəfli əməkdaşlığı gücləndirmişlər. Belə ki, 2023-cü il aprelin 5-də Azərbaycan Prezidenti İlham Əliyev Tacikistanda rəsmi səfərdə olarkən bir sıra əhəmiyyətli sahələri əhatə edən vacib sənədlər imzalanmışdır. Onlardan "Azərbaycan Respublikasının Daxili İşlər Nazirliyi ilə Tacikistan Respublikasının Daxili İşlər Nazirliyi arasında əməkdaşlıq haqqında Saziş", "Azərbaycan Respublikası Hökuməti ilə Tacikistan Respublikası Hökuməti arasında yerquruluşu, torpaq münasibətləri, kadastr, geodeziya, kartoqrafiya, Yerin məsafədən zondlanması və coğrafi informasiya sistemləri sahələrində əməkdaşlıq haqqında Saziş", "Azərbaycan Respublikasının Dövlət Gömrük Komitəsi ilə Tacikistan Respublikası Hökuməti yanında Gömrük Xidməti arasında Azərbaycan Respublikası və Tacikistan Respublikası arasında keçirilən mal və nəqliyyat vasitələri barədə ilkin məlumat mübadiləsinin təşkili haqqında Protokol" və s. sənədlər əlaqələrimizin müxtəlif sahələri ehtiva etdiyinin birbaşa sübutudur.

2024-cü il mayın 23-də Tacikistan Prezidenti də Bakıda səfərdə olarkən Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin və Tacikistan Respublikasının Prezidenti Emoməli Rəhmonun iştirakı ilə Azərbaycan-Tacikistan sənədlərinin imzalanması mərasimi olub. İmzalanan sənədlər sırasında "Azərbaycan Respublikası ilə Tacikistan Respublikası arasında strateji tərəfdaşlıq haqqında Bəyannamə"ni, "Azərbaycan Respublikasının Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyi ilə Tacikistan Respublikasının Sənaye və Yeni Texnologiyalar Nazirliyi arasında Anlaşma Memorandumu"nu, "Azərbaycan Respublikasının Ekologiya və Təbii Sərvətlər Nazirliyi ilə Tacikistan Respublikası Hökuməti yanında Ətraf Mühitin Mühafizəsi Komitəsi arasında ətraf mühitin mühafizəsi sahəsində əməkdaşlıq haqqında Anlaşma Memorandumu"nu və s. göstərmək olar (https://president.az/az/articles/view/65959).

Müasir dövrdə Azərbaycan-Qırğızıstan münasibətlərinin əsası Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyev tərəfindən qoyulmuşdur. Ümummilli Lider 1995-ci ilin avqustunda Türkdilli Dövlət Başçılarının III Zirvə Görüşündə və "Manas" eposunun 1000 illiyinə həsr olunmuş tədbirlərdə iştirak etmək üçün ilk dəfə Qırğızıstana səfər etmişdir.

Məlum olduğu kimi, 2024-cü il aprelin 24-də Qırğız Respublikasının Prezidenti Sadır Japarov Azərbaycanda rəsmi səfərdə olmuşdur. Hesab edirik ki, Mərkəzi Asiya ölkələrindən biri olan Qırğızıstan rəhbərinin Azərbaycana səfəri dövlətlərimiz arasında münasibətlərin daha da dərinləşməsinə töhfə verəcək. Prezident İlham Əliyevin rəhbərliyi ilə həyata keçirilən uğurlu daxili və xarici siyasət ölkəmizin beynəlxalq aləmdə nüfuzunu, siyasi çəkisini daha da artırır, yeni uğurlara yol açır. Bütün sahələrdə əldə edilən əhəmiyyətli nailiyyətlər, gündən-günə genişlənən beynəlxalq əlaqələr kifayət qədər önəmli hadisələrlə yadda qalır.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin və Qırğız Respublikasının Prezidenti Sadır Japarovun iştirakı ilə Dövlətlərarası Şuranın ikinci iclası uğurla keçmişdir. Cənab Prezidentimizin də qeyd etdiyi kimi, investisiya sahəsində əməkdaşlığın perspektivləri, Azərbaycan-Qırğızıstan İnkişaf Fondunun vəsaitlərinin artırılması, enerji sahəsində əməkdaşlıq, əmtəə dövriyyəsinin artırılması məsələləri müzakirə edilmiş, həmçinin nəqliyyat sahəsində iri infrastruktur layihələrin həyata

keçirildiyi bu iki ölkə arasındakı fəaliyyətlərin birləşdirilməsinin və əlaqələndirilməsinin yeni dəhlizlər açmaq və yeni nəqliyyat arteriyaları yaratmaq istiqamətində mühüm əhəmiyyət kəsb etdiyi vurğulanmışdır (https://president.az /az/articles/view/65597).

Tədbirdə Azərbaycan Baş nazirinin müavini Əli Əhmədov və Qırğızıstanın iqtisadiyyat və kommersiya naziri Daniyar Amangeldiyev tərəfindən "Azərbaycan Respublikası Nazirlər Kabineti ilə Qırğız Respublikası Nazirlər Kabineti arasında 2024-2029-cu illər üzrə Əməkdaşlıq Proqramı" imzalanmışdır.

Bundan başqa, "Azərbaycan Respublikasının Prezidenti yanında Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyi ilə Qırğız Respublikasının Rəqəmsal İnkişaf Nazirliyi arasında Qırğız Respublikasında dövlət xidmətləri mərkəzlərinin təkmilləşdirilməsinə dair Anlaşma Memorandumu" da imzalanmışdır.

Azərbaycanın energetika naziri Pərviz Şahbazov və Qırğızıstanın energetika naziri Taalaybek İbrayev tərəfindən "Azərbaycan Respublikasının Energetika Nazirliyi ilə Qırğız Respublikasının Energetika Nazirliyi arasında energetika sahəsində əməkdaşlıq haqqında Anlaşma Memorandumu" imzalanmışdır.

Dövlət başçısı İlham Əliyev bildirmişdir ki, Qırğız Respublikası ilə Azərbaycan Respublikası arasında güclü dostluq əlaqələri yaradılacaqdır. İmzalanmış Əməkdaşlıq haqqında Bəyannamə iki ölkə arasında münasibətlərin gözəl təməlidir (https://yapsuraxani.org.az/azərbaycan-və-mərkəzi-asiya-oelkələri-arasinda-muenasibətlər-inkisaf-edir).

Azərbaycana səfər zamanı, 2024-cü il aprelin 25-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və Qırğız Respublikasının Prezidenti Sadır Japarov Ağdam rayonunun Xıdırlı kənd tam orta məktəbinin birgə təməlqoyma mərasimində iştirak ediblər. Qırğızıstan Prezidentinin təşəbbüsü ilə Qırğızıstan dövləti adından Ağdamın Xıdırlı kəndində tam orta məktəb binasının inşası ölkələrimizin qardaş münasibətlərinin getdikcə daha da genişləndiyinin bariz göstəricisidir.

Azərbaycanla Qırğızıstan arasında diplomatik münasibətlər 1993-cü il yanvarın 19-da qurulub. 2007-ci ildə Azərbaycanın Qırğızıstanda səfirliyi, 2008-ci ildə isə Qırğızıstanın Bakıda səfirliyi fəaliyyətə başlayıb. Bütün yuxarıda qeyd etdiklərimiz də onu göstərir ki, Azərbaycanın Mərkəzi Asiya ölkələri, o cümlədən Qırğızıstanla əməkdaşlığının geniş perspektivləri var və gələcək illərdə mövcud potensialdan tam istifadə üçün daha böyük addımlar atılacaq.

Azərbaycan, Türkiyə və Türkmənistan həm etnik, həm dini-mədəni köklər və həm də ortaq mənəvi dəyərlərlə bir-biriləri ilə sıx bağlıdırlar. Məhz tarixi bağlar üzərində qurulmuş münasibətlər bu üç ölkə arasında iqtisadiyyat, ticarət, nəqliyyat-logistika və digər sahələrdə əməkdaşlığın inkişafı üçün geniş imkanlar yaradır. Ölkə rəhbərlərinin keçirdiyi mütəmadi görüşlər və qarşılıqlı səfərlər münasibətlərin daha da dərinləşməsinə və inkişafına əhəmiyyətli töhfələr verir. 2022-ci il dekabrın 14-də Türkmənbaşı şəhərində Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin, Türkiyə Respublikasının Prezidenti Rəcəb Tayyib Ərdoğanın və Türkmənistan Prezidenti Sərdar Berdiməhəmmədovun geniş tərkibdə görüşü baş tutdu. Lakin bundan bir gün əvvəl, dekabrın 13-də Türkmənistanın Avaza şəhərində Azərbaycan, Türkiyə və Türkmənistan XİN rəhbərlərinin görüşü keçirildi.

Azərbaycanın xarici siyasət idarəsinin başçısı Ceyhun Bayramov bildirdi ki, üçtərəfli görüşün əməkdaşlığın inkişafında böyük əhəmiyyəti vardır. Azərbaycan, Türkiyə və Türkmənistan arasında əməkdaşlıq formatı Şərq-Qərb Transxəzər nəqliyyat dəhlizinin gücləndirilməsində, Azərbaycanın işğaldan azad edilmiş ərazilərində yeni nəqliyyat infrastrukturunun yaradılmasında, Zəngəzur dəhlizinin açılması istiqamətində xüsusi əhəmiyyət kəsb edir (https://president. az/az/articles/view/58192).

14 dekabr 2022-ci il tarixində Türkmənbaşı şəhərində baş tutan konfransda, artıq qeyd etdiyimiz kimi, prezidentlər İlham Əliyev, Rəcəb Tayyib Ərdoğan və Sərdar Berdiməhəmmədov arasında görüş keçirilmişdir.

Konfransda Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev çıxış etmiş və qeyd etmişdir: "Tarixi bağlar üzərində qurulmuş münasibətlər ölkələrimiz arasında iqtisadiyyat, ticarət, nəqliyyat və digər sahələrdə əməkdaşlığın inkişafı üçün imkanlar yaradır. Bu il (2022-ci ildə) Türkmənistanla ticarət dövriyyəsi 5 dəfə artmışdır. Bu, rekord göstəricidir" (https://president.az/az/articles/view/58192).

Azərbaycan və Qazaxıstan münasibətlərinə baxdıqda isə, prezidentlərin son illər qarşılıqlı və yüksək səviyyəli səfərləri ikitərəfli münasibətlərə öz müsbət təsirini göstərmişdir.

Azərbaycan Respublikası ilə Qazaxıstan Respublikası arasında diplomatik əlaqələr 1992-ci il avqustun 30-da yaradılıb. 1993-cü ilin yanvarında Qazaxıstanın Azərbaycanda, 2004-cü ilin martında isə Azərbaycanın bu ölkədə səfirlikləri fəaliyyətə başlayıb. 2008-ci ilin sentyabrında Azərbaycanın Qazaxıstanın Aktau şəhərində baş konsulluğu açılıb. 2023-cü il noyabrın 2-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Qazaxıstana səfəri olub. Dövlətimizin başçısı Türk Dövlətləri Təşkilatının "Türk Əsri" çağırışı altında Astanada keçirilən 10-cu yubiley Zirvə görüşündə iştirak edib.

Qazaxıstan Respublikasının Prezidenti Kasım-Jomart Tokayev isə ötən il noyabrın 24-də Bakıda keçirilən BMT-nin Mərkəzi Asiya Ölkələrinin İqtisadiyyatları üçün Xüsusi Proqramının – SPECA-nın iştirakçı ölkələrinin dövlət və hökumət başçılarının Zirvə görüşündə iştirak etmək üçün ölkəmizdə işgüzar səfərdə olub (https://azertag.az/xeber/azerbaycan_qazaxistan_munasibetleri_en_yeni_merhelede-2945555).

Qazaxıstanın dövlət başçısının Azərbaycana növbəti səfəri cəmi bir neçə ay sonra baş tutub. Belə ki, 2024-cü il martın 11-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin və Qazaxıstan Respublikasının Prezidenti Kasım-Jomart Tokayevin iştirakı ilə Azərbaycan-Qazaxıstan sənədlərinin imzalanması mərasimi olub. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və Qazaxıstan Respublikasının Prezidenti Kasım-Jomart Tokayev "Azərbaycan Respublikasının və Qazaxıstan Respublikasının Ali Dövlətlərarası Şurasının 1-ci iclasının Qərarı"nı imzaladılar. Bundan başqa, "Azərbaycan Respublikasının Kiçik və Orta Biznesin İnkişafı Agentliyi (KOBİA) ilə "Damu" Sahibkarlığın İnkişafı Fondu" Səhmdar Cəmiyyəti arasında Anlaşma Memorandumu", "Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi və Qazaxıstan Respublikasının Prezidenti yanında "Mərkəzi Kommunikasiyalar Xidməti" Respublika Dövlət Müəssisəsi arasında Əməkdaşlığa dair Memorandum", "Azərbaycan Respublikasının Dövlət Neft Şirkəti ilə "KazMunayQaz" Milli Şirkəti" Səhmdar Cəmiyyəti arasında Qazaxıstan neftinin alqı-satqısı sahəsində strateji əməkdaşlıq haqqında Memorandum"u və "Azərbaycan Respublikasının Dövlət Neft Şirkəti ilə "KazMunayQaz" Milli Şirkəti" Səhmdar Cəmiyyəti arasında Qazaxıstan neftinin Azərbaycan Respublikası ərazisindən tranzit edilən həcmlərinin mərhələli artırılması haqqında Saziş" və s. mühüm sənədlər imzalanıb (https://president.az/az/articles/view/65301).

2024-cü il martın 12-də Qazaxıstan Respublikasının Prezidenti Kasım-Jomart Tokayev Qarabağa səfər edib və Füzuli şəhərinin Baş planı ilə tanış olub. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və Qazaxıstan Respublikasının Prezidenti Kasım-Jomart Tokayev Füzuli şəhərində inşa olunan Kurmanqazı adına Uşaq Yaradıcılıq Mərkəzinin açılış mərasimində iştirak ediblər. Mərkəzin yaradılması Azərbaycan və Qazaxıstan arasında ikitərəfli münasibətlərin daha da möhkəmlənməsinə, gənclərin keyfiyyətli təhsilinə, regionda yaradıcılığın, idmanın və elmin inkişafına töhfə vermək məqsədi daşıyır.

Azərbaycanın işğaldan azad edilmiş Füzuli şəhərində Qazaxıstan hökuməti tərəfindən Kurmanqazı adına Uşaq Yaradıcılıq Mərkəzinin tikilməsi Azərbaycan Prezidenti və ümumiyyətlə, xalqımız tərəfindən də yüksək qiymətləndirilir. Qazaxıstan Prezidenti Kasım-Jomart Tokayev Azərbaycana dövlət səfərindən əvvəl verdiyi müsahibədə Füzuli şəhərindəki Kurmanqazı adına Uşaq Yaradıcılıq Mərkəzinin ölkələrimizin və xalqlarımızın dostluğunun, qardaşlığının, qarşılıqlı dəstəyinin daha bir simvoluna çevriləcəyini bildirmişdir.

2024-cü il iyulun 3-də Azərbaycan Prezidenti İlham Əliyev Şanxay Əməkdaşlıq Təşkilatının Zirvə görüşündə iştirak etmək üçün Astanada səfərdə olub. Ölkəmizin başçısı qazaxıstanlı həmkarı ilə görüşdə bildirib ki, "... İşğaldan azad edilmiş ərazilərin bərpasına kömək göstərilməsi təşəbbüsünüzə görə bir daha bütün Azərbaycan xalqı adından minnətdarlığımı bildirmək istəyirəm. Qazax xalqının dahi oğlu Kurmanqazının adını daşıyan mərkəz səmərəli fəaliyyət göstərir və Sizinlə birlikdə qeyd etdiyimiz kimi, bu, Qazaxıstan-Azərbaycan dostluğunun və qardaşlığının mərkəzidir. Bu, şəxsən Sizin və qardaş Qazaxıstan xalqının Azərbaycana münasibətinin bariz təzahürüdür".

İki ölkə arasında əməkdaşlıq ikitərəfli formatla yanaşı, çoxtərəfli səviyyədə də, xüsusilə Türk Dövlətləri Təşkilatı (TDT) çərçivəsində də uğurla davam etdirilir. Hər iki ölkə TDT çərçivəsində əməkdaşlıq sahələrinin genişləndirilməsində və inkişaf etdirilməsində maraqlıdır.

Azərbaycanın xarici siyasətində Özbəkistan ilə əlaqələr mühüm əhəmiyyət kəsb edir. Azərbaycan-Özbəkistan əlaqələri bu gün yeni dövrün reallıqlarına uyğun olaraq sürətlə inkişaf etdirilir. İki ölkə arasında bu vaxtadək imzalanmış 160-dan çox sənəd, o cümlədən Strateji tərəfdaşlığın dərinləşdirilməsi və hərtərəfli əməkdaşlığın inkişafına dair Bəyannamə bu əməkdaşlıq üçün möhkəm hüquqi baza yaratmışdır. İki ölkə arasında münasibətlər yüksələn xətlə inkişaf edir. Xüsusi vurğulamaq lazımdır ki, Şavkat Mirziyoyev Özbəkistanda Prezident seçildikdən sonra bu əlaqələr ən yüksək səviyyəyə çatmışdır. Prezident Şavkat Mirziyoyevin Özbəkistanın rəhbəri seçildikdən sonra ilk dövlət səfərini məhz Azərbaycana etməsi ölkələrimiz arasında mövcud olan tarixi münasibətlərin ruhundan xəbər verir. Bu, Azərbaycan və özbək xalqları arasında dostluğun və qardaşlığın əyani təzahürüdür.

Şübhəsiz ki, əlaqələrin bugünkü yüksək səviyyəsi Prezident İlham Əliyevin həyata keçirdiyi güclü xarici siyasətin nəticəsidir. Burada əsas məsələlərdən biri də məhz qarşılıqlı maraqlardır. İki ölkə başçısının əvəzsiz xidmətləri nəticəsində Azərbaycan və Özbəkistan münasibətləri daha da güclənməkdədir. Özbəkistan prezidenti Şavkat Mirziyoyevin ölkəmizə səfəri türk dövlətləri arasında əlaqələrin və strateji tərəfdaşlığın inkişaf etdirilməsi baxımından olduqca mühüm tarixi hadisədir. 2024-cü il avqustun 23-də Azərbaycan Prezidenti İlham Əliyevin Özbəkistana növbəti səfəri gerçəkləşdi. Azərbaycan Prezidentinin səfərinə böyük önəm verən Özbəkistan Prezidenti Şavkat Mirziyoyev bildirdi ki, "Böyük məmnuniyyətlə qeyd etmək istəyirəm ki, Azərbaycan Prezidentinin Özbəkistana dövlət səfəri çoxəsrlik dostluq münasibətlərimizin inkişafında tarixi hadisədir. Bu gün hörmətli İlham Heydər oğlu ilə müttəfiqlik münasibətləri haqqında Müqavilə imzaladıq. Bu sənəd dövlətlərarası qarşılıqlı fəaliyyətin möhkəmləndirilməsində yeni fəslin başlanması ilə əlamətdardır. Biz bununla çoxplanlı tərəfdaşlığın hərtərəfli inkişafı kursuna möhkəm sadiqliyimizi təsdiq etdik" (https://president.az/az/articles/view/66728). Səfər zamanı "Azərbaycan Respublikası ilə Özbəkistan Respublikası arasında müttəfiqlik münasibətləri haqqında Müqavilə", "Azərbaycan Respublikasının Dövlət Turizm Agentliyi ilə Özbəkistan Respublikasının Ekologiya, Ətraf Mühitin Mühafizəsi və İqlim Dəyişikliyi Nazirliyi yanında Turizm Komitəsi arasında 2024-2026-cı illər üzrə turizm sahəsində Fəaliyyət Planı", "Azərbaycan Respublikasının Mədəniyyət Nazirliyi ilə Özbəkistan Respublikasının Mədəniyyət Nazirliyi arasında 2024-2026-cı illər üçün mədəni-humanitar əməkdaşlıq üzrə Yol xəritəsi" və digər sənədlər imzalandı.

Əlaqələrimizin getdikcə daha da genişlənməsinin növbəti sübutu olaraq Füzulidə inşa olunan Mirzə Uluqbəy adına 1 nömrəli tam orta məktəbi göstərmək olar. Məktəbə Əmir Teymurun nəvəsi, özbək xalqının böyük oğlunun adı verilib. Özbəkistan Prezidenti Şavkat Mirziyoyev tərəfindən özbək xalqı adından hədiyyə olaraq Füzulidə inşa edilən məktəb 960 şagird yerlikdir. 2022-ci ildə başlanılan tikinti işləri ötən il başa çatdırılmış və Özbəkistan Prezidentinin Azərbaycana səfəri zamanı - 23 avqust 2023-cü ildə məktəbin təntənəli açılış mərasimi keçirilmişdir (https://president.az/az/articles/view/60907).

**Nəticə**

Bütün bu qeyd etdiyimiz amillər Azərbaycanla Mərkəzi Asiya ölkələri arasında ikitərəfli əlaqələrin sürətli inkişafına təkan verir. Dövlətlər arasındakı münasibətlər, dövlət başçılarının mütəmadi baş tutan qarşılıqlı səfərləri göstərdi ki, bizim strateji əməkdaşlığımız üçün çox gözəl zəmin vardır.

Bütün bunlar onu deməyə əsas verir ki, ortaq soykökü və tarixi-mədəni əlaqələrə malik ölkələrimiz arasındakı münasibətlər bundan sonra da xalqlarımızın və dövlətlərin maraqlarına uyğun inkişaf edəcək və genişlənəcək. Mərkəzi Asiya ölkələri ilə gündən-günə daha da möhkəmlənən qarşılıqlı sərfəli əməkdaşlığımız həm ölkələrimiz və xalqlarımız üçün böyük əhəmiyyət kəsb edir, həm də bütün Türk dünyasının inkişafına əhəmiyyətli töhfələr verməkdədir.

Azərbaycanın Mərkəzi Asiya ölkələri ilə əməkdaşlığının çox yaxşı perspektivləri var və gələcək illərdə bu əməkdaşlığın daha da genişlənməsi və dərinləşməsi üçün daha böyük işlər görüləcək, daha əhəmiyyətli addımlar atılacaq. Şübhəsiz ki, Azərbaycan və Mərkəzi Asiya ölkələri arasında gün-gündən inkişaf edən qarşılıqlı faydalı münasibətlər Türk dünyasının tərəqqisinə olduqca mühüm töhfələr verəcəkdir.

## ƏDƏBİYYAT


Azərbaycan, Türkiyə və Türkmənistan prezidentlərinin geniş tərkibdə görüşü keçirilib. /https://president.az/az/articles/view/58192,14 dekabr 2022

Azərbaycan-Qazaxıstan münasibətləri ən yeni mərhələdə. /https://azertag.az/xeber/azerbaycan_qazaxistan_munasibetleri_en_yeni_merhelede-2945555, Hikmət Əhmədov 11 mart 2024

Azərbaycan-Qazaxıstan sənədlərinin imzalanması mərasimi olub. /https://president.az/az/articles/view/65301, 11 mart 2024

Azərbaycan və Qırğızıstan Dövlətlərarası Şurasının 2-ci iclası keçirilib. /https://president.az/az/articles/view/65597, 24 aprel 2024

Azərbaycan və Mərkəzi Asiya ölkələri arasında münasibətlər inkişaf edir. /https://yapsuraxani.org.az/azərbaycan-və-mərkəzi-asiya-oelkələri-arasinda-muenasibətlər-inkisaf-edir, Rəsmiyyə Hüseynova, 30 aprel 2024

Azərbaycanı Mərkəzi Asiya ölkələri ilə çoxəsrlik tarixi və mədəni əlaqələr bağlayır. "İki sahil" qəzeti, 29 noyabr 2023. https://globalnews.az/news/azerbaycan-merkezi-asiya-olkeleri-ile-coxesrlik-tarixi-ve-medeni-elaqeler-baglayir/

Azərbaycan-Tacikistan sənədləri imzalanıb. /https://president.az/az/articles/view/65959, 23 may 2024

Azərbaycan və Özbəkistan prezidentləri mətbuata bəyanatlarla çıxış ediblər. /https://president.az/az/articles/view/66728, 23 avqust 2024

Füzulidə Mirzə Uluqbəy adına 1 nömrəli tam orta məktəbin açılışı olub. /https://president.az/az/articles/view/60907, 23 avqust 2024

İlham Əliyev Mərkəzi Asiya Dövlət Başçılarının 5-ci Məşvərət görüşündə iştirak edib. /https://president.az/az/articles/view/61059, 14 sentyabr 2024

SPECA-nın Zirvə görüşünün Bakı Bəyannaməsi. /https://apa.az/xarici-siyaset/speca-nin-zirve-gorusunun-baki-beyannamesi-tam-metn-797219, 24 noyabr 2024

Ömərov V., Azərbaycanın Şərqi və Cənub Şərqi Asiya ölkələri (İndoneziya, Cənubi Koreya, Tailand və s.) ilə əməkdaşlığı. "Səs" qəzeti, 2 mart 2013, s.14. https://sesqazeti.az/news/mia/337929.html

Üç ölkəni bir araya gətirən ortaq maraqlar. /https://www.yeniazerbaycan.com/Siyaset_e77891_az.html, Mübariz Feyzli, 06 dekabr 2024

## РЕЗЮМЕ

***Надежда АСАДОВА***

***Перспективы отношений между Азербайджаном и странами Центральной Азии***

***Ключевые слова:*** *СПЕКА, страны Центральной Азии, Азербайджан, международные связи, Средний коридор*

Эффективное и взаимовыгодное сотрудничество Азербайджана с другими странами продолжает расширяться. В статье показано, что в последнее время как деловые, так и официальные визиты Президента в зарубежные страны, а также официальные визиты глав государств и правительств других стран в Баку являются показателем развивающихся связей Азербайджана и тесных связей с зарубежными странами по восходящей линии.

В последние годы наблюдается значительное оживление в отношениях Азербайджана с странами Центральной Азии, включая тюркские государства. Азербайджан играет ключевую роль в экономической и иногда политической интеграции стран Центральной Азии в мировую арену, благодаря историческим, религиозным, языковым, культурным и географическим связям. Страны Центральной Азии через Азербайджан объединяют Восток и Запад. После отечественной войны Азербайджан расширил свои транспортно-логистические возможности, превратив страну в важный транзитный хаб между Востоком и Западом. Не случайно сегодня самые короткие и безопасные транзитные машруты из Центральной Азии в Европу проходят через Азербайджан. Следует также отметить, что Азербайджан развил современную транспортно-логистическую инфраструктуру, интегрировавшись в международные транспортные сети. Статус Азербайджана как транзитной страны в Центральной Азии становится все более важным.

По мнению автора, Центральная Азия и Азербайджан представляют собой единый историко-культурный географический регион, имеющий стратегическое значение в мировой политике с их растущей экономикой, демографией и геополитическим потенциалом. Отношения с тюркским миром также имеют большое значение в контексте отношений Азербайджана со странами Центральной Азии. Во внешней политике нашего государства одним из приоритетных направлений является укрепление всесторонних отношений со странами-членами Организации тюркских государств. Азербайджан всегда выступает с важными инициативами по интеграции тюркского мира и предпринимает практические шаги в этом направлении. В статье подчеркивается, что первый саммит Специальной программы ООН для экономик стран Центральной Азии (СПЕКА), состоявшийся в Баку, в настоящее время находится в центре внимания во всем мире. По итогам первой встречи на высшем уровне глав государств и правительств стран-участниц СПЕКА были приняты Бакинская декларация и Дорожная карта по цифровизации Среднего коридора. Отмечая, что сотрудничество Азербайджана со странами Центральной Азии имеет очень хорошие перспективы, автор подчеркивает, что в ближайшие годы будут сделаны большие дела и предприняты более важные шаги для дальнейшего расширения и углубления этого сотрудничества. Несомненно, взаимовыгодные отношения между Азербайджаном и странами Центральной Азии, которые развиваются с каждым днем, внесут весьма существенный вклад в прогресс тюркского мира.

В статье подробно проанализированы вопросы, по которым отношения между нашими странами, имеющими общее происхождение и историко-культурные связи, будут и дальше

развиваться и расширяться в соответствии с интересами наших народов и государств. Взаимовыгодное сотрудничество со странами Центральной Азии, которое становится все крепче и крепче, имеет огромное значение для наших стран и народов, а также вносит значительный вклад в развитие всего тюркского мира.


## ABSTRACT

**_Nadejda ASADOVA_**

***Prospects of Relations Between Azerbaijan and Central Asian Countries***

**_Keywords:_** *SPECA, Central Asian countries, Azerbaijan, international relations, Middle Aisle*

Our country continues to expand its effective and mutually beneficial cooperation with other nations. The article highlights that, in recent times, both the President's official and working visits to foreign countries and the official visits of heads of state and government to Baku reflect Azerbaijan's steadily growing relations and close ties with foreign states.

In recent years, there has been significant revitalization in Azerbaijan’s relations with Central Asian countries, including Turkic states. Azerbaijan plays a pivotal role in the economic and sometimes political integration of Central Asian countries into the global arena, due to historical, religious, linguistic, cultural, and geographical ties. Central Asian countries are uniting the East and the West through Azerbaijan. After the Patriotic War, the expansion of Azerbaijan’s transport and logistics capabilities turned our country into an important transport hub between the East and the West. It is no coincidence that today, the shortest and safest transit routes from Central Asia to Europe pass through Azerbaijan. It should be noted that Azerbaijan has developed modern transportation and logistics infrastructure, integrating into international transportation networks. Central Asian countries recognize Azerbaijan’s transit country status as increasingly significant day by day.

According to the author, Central Asia and Azerbaijan are a single historical and cultural geographical region with strategic importance in world politics with their growing economy, demography and geopolitical potential. Relations with the Turkic world are also of great importance in the context of Azerbaijan’s relations with Central Asian countries. In the foreign policy of our state, one of the priority directions is strengthening comprehensive relations with the member countries of the Organization of Turkic States. Azerbaijan always takes important initiatives for the integration of the Turkic world and takes practical steps in this direction.The article emphasizes that the first summit of the UN Special Program for the Economies of Central Asian Countries (SPECA) held in Baku is currently in the center of attention worldwide. At the end of the first Summit meeting of the heads of state and government of SPECA participating countries, the Baku Declaration and the Road Map on the Digitization of the Middle Corridor were adopted. Noting that Azerbaijan’s cooperation with Central Asian countries has very good prospects, the author emphasizes that in the coming years, great things will be done and more important steps will be taken to further expand and deepen this cooperation. Without doubt, the mutually beneficial relations between Azerbaijan and Central Asian countries, which are developing day by day, will make very essential contributions to the progress of the Turkic world.

In the article, the issues of whether the relations between our countries with common ancestry and historical-cultural relations will continue to develop and expand in accordance with the interests of our peoples and states were extensively analyzed. The mutually beneficial cooperation with the

countries of Central Asia, which is getting stronger more and more, is of great importance for our countries and peoples, and also makes significant contributions to the development of the entire Turkic world.